# Hacıqabulda sənaye məhəlləsinin yaradılması sənayeləşməyə dövlət dəstəyinin təzahürüdür

***Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi üçün yeni imkanlar yaradır.***

Son günlər dövlətimizin başçısının iştirakı ilə xüsusilə qeyri-neft sektoru üçün vacib olan müəssisələrin açılışı həyata keçirilir. Hacıqabul rayonunda sənaye məhəlləsinin yaradılması Azərbaycanda sənayeləşməyə dövlət dəstəyinin təzahürü kimi xarakterizə olunmalıdır. Sənaye məhəllələrində fəaliyyət göstərən sahibkarlar genişmiqyaslı yeni güzəştlərdən istifadə etmək imkanına malikdirlər. Bu, bir tərəfdən





həmin məhəllələrə yerli investisiyanın cəlb edilməsinə imkan verir, digər tərəfdən sahibkarların dövlət dəstəyindən daha geniş faydalana bilmələrinə şərait yaradır. Bu, həm də regionların inkişafı baxımından son dərəcə vacibdir.

Sənaye məhəllələrində fəaliyyət göstərən sahibkarlar dövlət dəstəyi ilə yeni iş yerlərinin yaradılmasını həyata keçirirlər. Bu, yerli istehsalın və ixrac imkanlarının genişləndirilməsinə xidmət edir. Ona görə də reallaşdırılan siyasət həm məşğulluğun təmin olunmasına, həm də Azərbaycanın istehsal və ixrac imkanlarının artırılmasına gətirib çıxarır.

Yeni müəssisələr sənayedə və bütövlükdə real sektorda kifayət qədər prioritet istiqamətlər üzrə yaradılıb. Elektrik enerjisi istehsalı sahəsində yeni yarımstansiyaların istifadəyə verilməsi, Azərbaycanın elektrik enerjisi istehsalı və ixrac imkanlarının artırılması ondan xəbər verir ki, ölkəmiz artıq sənayedə yeni və rəqabətli məhsulların da ixracını həyata keçirir.

Göründüyü kimi, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, respublikada mövcud təbii və iqtisadi resursların istehsala cəlbi, yeni sənaye sahələrinin yaradılması, onların ən müasir texnologiyalarla təmin edilməsi istiqamətində sistemli tədbirlər uğurla həyata keçirilir. Başqa sözlə, iqtisadi tərəqqidə “Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir” prinsipini strateji kurs kimi müəyyənləşdirən Prezident İlham Əliyev sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. kimi məsələlərə xüsusi önəm verir.

Hazırda ölkədə sənayenin yeni modellərinin tətbiqi də diqqət mərkəzində saxlanılır. Yeni istifadəyə verilən və müasir texnologiyalara əsaslanan sənaye parkları və məhəllələri, aqroparklar ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına əlverişli imkanlar açır.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 23 aprel.- S.6.